

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

8 sentyabr 2022-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 35 (3598)

# IV "ADEX" və XIII "SECUREX CASPİAN" sərgiləri keçirilib



Sentyabrın 6-da Azərbaycan Prezidenti İlham Əliyev Bakı Ekspo Mərkəzində keçirilən IV Azərbaycan Beynəlxalq Müdafiə "ADEX" və XIII Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə "Securex Caspian" sərgiləri ilə tanış olub.

Bildirilib ki, builki sərgidə Türkiyə, Rusiya, İran, Bolqarıstan, Çin, Fransa, İtaliya, Niderland olmaqla dünyanın 30-a yaxın ölkəsindən 200-dən artıq şirkət iştirak edib.

Dövlətimizin başçısı Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin pavilyonlarında döyüş kəşfiyyat texnikasına, çoxməqsədli, kəşfiyyat və zərbə pilotsuz uçuş aparatlarına, müxtəlif çaplı atıcı silahlara, mühəndislik texnikalarına, o cümlədən son illərdə ölkəmizdə istehsal olunan digər hərbi texnikalara baxıb.

Sərgidə ən çox, 42 şirkət ilə təmsil olunan qardaş Türkiyə Respublikasının pavilyonlarını izləyən Prezident İlham Əliyev müdafiə sənayesində ən müasir, eləcə də qabaqcıl texnologiyaların istehsalı ilə seçilən "HAVELSAN" və "Roketsan" şirkətlərinin məhsulları ilə tanış olub.

Şirkətlər yeni nəsil texnologiyalar, xüsusilə də süni intellektlə əlaqəli məhsullar, layihələr, sistemlər hazırlamaqla yanaşı müxtəlif növ raketlər, reaktiv silahlar, atış və hərəkət sistemləri ilə birlikdə idarə olunan döyüş sursatları, istiqamətləndirmə-idarəetmə sistemləri, döyüş başlıqları, mexaniki hissələr də istehsal edir.

Ölkəmizin rəhbəri Pakistan İslam Respublikasının pavilyonları ilə də tanış olub. Bildirilib ki, ölkəmizlə hərbi əməkdaşlıq edən Pakistanda istehsal olunan hərbi məhsullar hərbi sənaye kompleksinin bütün istiqamətlərini əhatə edir.

Sərgidə Prezident İlham Əliyevə İspaniyanın "Indra" şirkətinin radar, elektron müdafiə, idarəetmə və kommunikasiya texnologiyaları da nümayiş etdirilib. Dövlətimizin başçısı həmçinin, İsrailin, Ukraynanın, Qazaxıstanın, Bolqarıstan, İran İslam, eləcə də Çin Xalq respublikalarının və Rusiya Federasiyasının pavilyonları ilə tanış olub.

Qeyd edək ki, sərgilərin keçirildiyi üç gün ərzində Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin minalardan təmizlənməsi, pilotsuz sistemlərinin inkişaf perspektivləri və tətbiq sahələri üzrə, müasir silah sistemləri, sursatlar və onların təyinatı, zirehli döyüş nəqliyyat vasitələrinin müasir döyüş mühitində rolu və digər aktual mövzular üzrə sessiyalar da keçirilib.

## Rəsmi xronika

*Prezident İlham Əliyev sentyabrın 1-də Romada Azərbaycan Respublikasının İtaliya Respublikasındakı səfirliyinin yeni binasının açılışında iştirak edib.*

*Ölkəmizin başçısı İlham Əliyev sentyabrın 2-də Çernobbio şəhərində İtaliyanın "İl Sole 24 Ore" qəzetinin müxbiri Roberto Bonconiyə müsahibə verib.*

*Sentyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında telefon danışığı olub.*

*Prezident İlham Əliyev sentyabrın 3-də Dünya və Avropa Karate Federasiyasının prezidenti Antonio Espinosu qəbul edib.*

*Dövlətimizin başçısı sentyabrın 7-də Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarının işğaldan azad olunmuş ərazilərinin yaşayış məntəqələrində (şəhər, kənd, qəsəbə) tikinti, təmir və bərpa işləri ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.*

*Ölkə rəhbəri İlham Əliyev sentyabrın 7-də Qarabağ iqtisadi rayonuna daxil olan Ağdam, Füzuli, Xocavənd və Tərtər rayonlarının işğaldan azad olunmuş ərazilərinin yaşayış məntəqələrində (şəhər, kənd, qəsəbə) tikinti, təmir və bərpa işləri ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.*




Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik cənab Vilayət Eyvazov tərəfindən cari il sentyabr ayının 22-də Gəncə Şəhər Baş Polis İdarəsinin inzibati binasında Gəncə, Göygöl, Samux, Kəlbəcər, Daşkəsən, Ağstafa, Tovuz, Gədəbəy, Qazax və Şəmkir şəhər və rayonlarının sakinlərinin qəbulu keçiriləcək.

Qəbula yazılmaq istəyən vətəndaşlar Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı 21.09.2022-ci il tarixədək yaşadıqları ərazinin polis orqanına, habelə DİN-in mia.gov.az internet saytı vasitəsilə və sosial şəbəkələrdəki səhifələrinə müraciət edə bilərlər.

Qəbula gələnlərdən şəxsiyyət vəsiqəsi tələb olunur.

# Sosial şəbəkədə dələduzluq edən şəxslər saxlanılıb

## Onlar zərərçəkənlərə 1 milyon manata yaxın maddi ziyan vurublar

Naməlum şəxslərin "instagram" sosial şəbəkəsində və müxtəlif xəbər portallarında elanlar yerləşdirərək pul qismində yatırım edəcəkləri halda beynəlxalq maliyyə birjalarında ticarət əməliyyatları və kriptovalyuta alqı-satqısı həyata keçirmək yolu ilə külli miqdarda maddi vəsait qazanacaqları adı altında vətəndaşları aldatmaları barədə Daxili İşlər Nazirliyinə çoxsaylı müraciətlər daxil olub.

Nazirliyin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşlarının həyata keçirdikləri əməliyyat-texniki tədbirlər nəticəsində zərərçəkənlərin etibarından sui-istifadə edərək onları qeyd edilən yolla aldadan Rəşid Bayramov və tanışı Vüqar Əliyev saxlanılıblar.

Müəyyən edilib ki, bu şəxslər



instaqram sosial şəbəkəsində "_bayramoff_666_" və "shahra_mmc" adlı profillər yaradaraq onlara müraciət edərək pul göndərən şəxslərə kriptovalyuta alqı-satqısı və beynəlxalq birjalara yatırım etməklə artan xətt üzrə gəlir əldə edəcəkləri barədə yalan vədlər veriblər. Özlərini etibarlı biznes tərəfdarları kimi göstərmək və bu iş vasitəsi ilə külli miqdarda qazanc əldə etməyin mümkünlüyü barədə görüntü yaratmaq məqsədi ilə Rəşid Bayramov və Vüqar Əliyev səhifələrdə müxtəlif şirnikləndirici videolar yerləşdiriblər. Onlar müraciət edən şəxslərin etibarını qazanmaq üçün lüks həyat yaşadıqlarına dair yalançı görüntü belə yaradıblar. Bu yolla 100-dən artıq şəxsin pulunu ələ keçirən hər iki şəxs əslində beynəlxalq birjalarda və kriptovalyuta alqı-satqısında heç bir əməliyyat etməyərək dələduzluq yolu ilə zərərçəkənləri aldadıblar. Rəşid Bayramov və Vüqar Əliyevin bu yolla insanlara 1 milyon manata yaxın ziyan vurduqları müəyyən edilib.

Faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb. Rəşid Bayramov və Vüqar Əliyev təqsirləndirilən şəxs qismində cəlb edilməklə barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Bu şəxslərin qanunsuz əməllərindən zərərçəkən digər vətəndaşlar varsa Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə müraciət edə bilərlər.





# Əsrin ən böyük möcüzəsi onların adı ilə bağlıdır

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının cəsur xüsusi təyinatlısı, şəhid çavuş Şahbazov Abas Cavad oğlu 1996-cı il noyabrın 13-də İmişli rayonunun Qulubəyli kəndində doğulub.

O, orta təhsilini Azərbaycanın Milli Qəhrəmanı, şəhid İmamverdi Əliyevin adını daşıyan Qulubəyli kənd tam orta məktəbində alıb.

2015-ci ilin yanvar ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin İmişli Rayon Şöbəsindən müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2016-cı ilin iyul ayınadək Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 25031 və 16075 saylı hərbi hissələrində hərbi xidmət keçib. Müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra qoşunların sıralarında qalaraq, hərbi xidmətini davam etdirməyə qərar verib. Beləliklə, 2016-cı ilin iyul ayında 16075 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. 2019-cu ilin dekabr ayından isə 99713 saylı hərbi hissənin “Şahin” şərti adını daşıyan xüsusi təyinatlı dəstəsinin snayper qrupunda atıcı-müşahidəçi vəzifəsində xidmət edib.

Vətən müharibəsinin ilk günündən hərbi əməliyyatlara qatılan çavuş A.Şahbazov Cəbrayıl rayonunun bir sıra yaşayış məntəqələrinin və strateji əhəmiyyətli yüksəkliklərin azad olunması uğrunda gedən döyüşlərdə fəal iştirak edib.

99713 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin snayper qrupunda qrup komandirinin müavini-snayper, Vətən müharibəsi iştirakçısı gizir Şamil Əhmədov vaxtilə birgə xidmət etdiyi Abasın nümunəvi hərbi xidmətindən və döyüş meydanında göstərdiyi qəhrəmanlığından iftixar hissi ilə danışdı: “Çavuş Abas Şahbazovu hələ 16075 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin tərkibində birgə xidmət etdiyimiz dövrdən tanıyırdım. Tale elə gətirdi ki, Vətən müharibəsi zamanı Abasla eyni qrupun tərkibində döyüş əməliyyatlarına qatıldıq. İlk döyüşümüz sentyabrın 29-da kapitan İsmayıl Səmədovun rəhbərliyi altında (2020-ci ilin oktyabrın 11-də Füzuli istiqamətində gedən döyüşdə şəhid olub, ölümündən sonra “Vətən Müharibəsi Qəhrəmanı” adına layiq görülüb) Cəbrayıl rayonunda yerləşən Lələtəpə yüksəkliyi istiqamətindən başladı. Müdafiə Nazirliyinin xüsusi təyinatlıları ilə birgə ermənilərin uzun illər möhkəmləndirdikləri və keçilməz hesab etdikləri cəbhə xəttinin yarılmasında iştirak etdik və uğur qazandıq. Bizimlə qarşı-qarşıya vuruşmaqdan qorxan düşmən əsgərləri silahlarını atıb qaçırdı. Cəbrayıl şəhəri istiqamətində bir sıra yaşayış məntəqələri və mühüm əhəmiyyət kəsb edən yüksəkliklər düşməndən geri alındı. Növbəti döyüş tapşırığımız Cəbrayıl şəhərinin azad edilməsi idi.

Oktyabrın 4-də Cəbrayıl istiqamətində döyüşlərə qatıldıq. Qarşımıza şəhər ətrafındakı “Qüllələr” deyilən və ermənilərin nəzarətində olan təpəni azad etmək tapşırığı qoyulmuşdu. İki qrupa ayrılmışdıq. Bütün hazırlıqlar görüldükdən sonra hücuma keçmək üçün havanın qaralmasını gözlədik. Oktyabrın 4-dən 5-nə keçən gecə güclü yağış yağmağına baxmayaraq, hücuma keçdik. İrəlilədiyimiz vaxt ermənilərin postuna təxminən 20-25 metr qalmış mənfur düşmən pulemyotlardan və müxtəlif növ silahlardan atəş açmağa başladı. Biz dərhal mövqe tutub döyüşü davam etdirməyə başladıq. Həmin vaxt şəhid və yaralılarımız oldu. Lakin biz hücumu davam etdirərək, düşmənin xeyli sayda canlı qüvvəsini məhv edib, mövqelərini ələ keçirdik. Bu döyüşdə düşmən gülləsinə tuş gələrək ağır yaralanmış cəsur silahdaşlarımızdan biri də Abas idi. Ona ilkin tibbi yardım göstərilsə də, yarası ağır olduğundan təəssüflər olsun ki, həyatını xilas etmək mümkün olmadı...”.

Çavuş Abas Şahbazov 2020-ci il oktyabrın 6-da doğulub boya-başa çatdığı Qulubəyli kənd qəbiristanlığında dəfn olunub. Subay idi. Ölümündən bir ay öncə nişanlanmışdı. Abas müharibədən sonra toy edib ailə həyatı qurmağı və xoşbəxt ömür sürməyi düşünürdü.

Füzuli Rayon Qeydiyyat Şöbəsi tərəfindən verilmiş 17 oktyabr 2020-ci il tarixli ölüm haqqında şəhadətnamədə hərbi qulluqçumuzun 2020-ci il oktyabrın 6-da Füzulidə hərbi əməliyyat nəticəsində odlu silah yarasından həlak olduğu yazılıb.

Azərbaycan Respublikasının Prezidentinin 15 və 24 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə çavuş Şahbazov Abas Cavad oğlu (ölümündən sonra) “Vətən uğrunda” və “Cəbrayılın azad olunmasına görə” medalları ilə təltif edilib.

Şəhidin qardaşı Mirzağa Şahbazov da Vətən müharibəsi iştirakçısıdır. Müdafiə Nazirliyinin “N” saylı hərbi hissəsinin müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi döyüş əməliyyatlarına qatılan Mirzağa “İgidliyə görə”, “Cəbrayılın azad olunmasına görə”, “Qubadlının azad olunmasına görə” və “Laçının azad olunmasına görə” medalları ilə təltif edilib.

Onu da qeyd edim ki, Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun diqqət və qayğısı nəticəsində şəhid hərbi qulluqçumuzun qardaşı daxili işlər orqanlarında xidmətə qəbul edilib. Polis kiçik serjantı M.Şahbazov hazırda İmişli Rayon Polis Şöbəsində Post-Patrul Xidməti Bölüyünün polis nəfəri vəzifəsindədir.

*mayor Anar Əhmədov*

# Qeyri-hökumət təşkilatları ilə növbəti görüş




“Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020–2025-ci illər üçün Fəaliyyət Planı”nın icrası ilə bağlı Bakı Şəhər Baş Polis İdarəsində dövlət və qeyri-hökumət təşkilatları ilə daha bir görüş keçirilib.

Budəfəki tədbirdə Ədliyyə və Təhsil nazirliklərinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, UNİCEF-in Azərbaycan Ofisinin, həmçinin uşaq sığınacaqlarının nümayəndələri və yerli polis orqanlarının yetkinlik yaşına çatmayanlarla iş üzrə əməkdaşları iştirak ediblər.

**Bakı şəhər BPİ İctimai Təhlükəsizlik İdarəsinin rəis müavini, polis polkovnik-leytenantı Ceyhun Şabanov** yetkinlik yaşına çatmayanların hüquqlarının müdafiəsi sahəsində aidiyyəti dövlət və qeyri-hökumət təşkilatları ilə işin təkmilləşdirilməsi məqsədilə keçirilən tədbirin əhəmiyyətindən danışıb. Uşaqlarla bağlı qarşıda duran vəzifələrin həllini tapması üçün polislə qarşılıqlı əlaqənin qurulmasının önəminə diqqət çəkən rəis müavini səsləndirilən təkliflər əsasında müsbət nəticənin əldə ediləcəyinə əminliyini bildirib.



**İctimai Təhlükəsizlik İdarəsinin Yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili bölməsinin rəisi, polis polkovniki İbrahim İsmayılov** isə paytaxt ərazisində uşaqların qanunsuz əməyə cəlb edilməsi, sosial təhlükəli vəziyyətdə olan uşaqların sığınacaqlara yerləşdirilməsi, avaraçılıqla məşğul olan, dilənən, küçə həyatı sürən uşaqların qorunması istiqamətində həyata keçirdikləri tədbirlər barədə məlumat verib.

Görüşdə iştirak edən sığınacaqların nümayəndələri Daxili İşlər Nazirliyi tərəfindən sığınacaqların mühafizəyə götürməsinə xüsusi diqqət çəkiblər. Qeyd edilib ki, əvvəllər uşaq və qadın sığınacağının sakinləri, əməkdaşları həyatı təhlükə ilə üzləşirdisə, ödənişsiz polis mühafizəsindən sonra bu risklər aradan qalxacaq, təhlükəsizlik təmin ediləcək.

Digər çıxışçılar da qanun pozuntularına yol vermiş yetkinlik yaşına çatmayanların müvafiq islah və reinteqrasiya tədbirləri barədə, o cümlədən uşaqların təkrar cinayət törətmə halları, habelə cinayətkarlığa şərait yaradan vəziyyətin aradan qaldırılması üçün birgə kompleks profilaktik tədbirlərin görülməsi haqda danışıblar.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş müzakirə aparılıb, təkliflər dinlənilib.

*“Polis”*

# Polislər məişət zorakılığından danışıblar



Suraxanı rayonunun Hövsan, Bülbülə, Zığ, Yeni Suraxanı və Əmircan qəsəbələrində məişət zorakılığının qarşısının alınması ilə bağlı yerli bələdiyyələrlə silsilə tədbirlər keçirilib. Rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə baş tutan maarifləndirici görüşlərə polis əməkdaşları, ictimaiyyət nümayəndələri, ağsaqqallar, din xadimləri, psixoloqlar, ziyalılar, gənclər və sakinlər qatılıb.

**Görüşlərdə iştirak edən Suraxanı RPİ İctimai Təhlükəsizlik Şöbəsinin Yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili bölməsinin rəisi, polis polkovnik-leytenantı Əfqan Ağayev və bölmənin baş inspektoru, polis kapitanı İlahə Balayeva** məişət zorakılığının qarşısının alınması, eləcə də bu istiqamətdə problemlərin mövcud qanunvericiliyə uyğun həlli ilə bağlı tədbir iştirakçılarına məlumat veriblər.

Xüsusilə vurğulanıb ki, polis məişət zorakılığı ilə qanun çərçivəsində mübarizə aparır, münaqişəli ailələr qeydiyyata götürülür. Problemin həllinin təkcə polisin deyil, bütün cəmiyyətin vəzifəsi olduğunu diqqətə çatdıran həmkarlarımız, birgə fəaliyyətin məişət zorakılığının qarşısının alınmasında daha effektli nəticə verə biləcəyini qeyd ediblər.

Tədbirlərdə məişət zorakılığı ilə mübarizənin aparılması, qanuni imkanlar və digər məsələlər ətrafında geniş müzakirələr aparılıb.

*R.Mehtiyev*

# Qaydalara birlikdə riayət edək




Yay mövsümünün başa çatması, paytaxt yollarında nəqliyyat sıxlığının əhəmiyyətli dərəcədə artması, eləcə də yeni tədris ilinin başlanması ilə əlaqədar Baş Dövlət Yol Polisi İdarəsi vətəndaşlara müraciət edib.

İdarə əməkdaşları təhlükəsizliyin təmin olunması məqsədilə hərəkət iştirakçılarını yollarda daha diqqətli olmağa, ən kiçik qayda pozuntusunun belə böyük faciəyə yol aça biləcəyini unutmamağa çağırıb. Müraciətdə avtomobil sürücülərinə bir-birilərinə hörmətlə yanaşmaq, qaydalara ciddi riayət etmək, sükan arxasında diqqəti yayındıran, qəzaya səbəb ola biləcək hallardan yayınmaq, ələlxüsus məktəb ərazilərinə yaxın piyada keçidlərində daha diqqətli olmaq öz əksini tapıb.

Həmçinin qeyd olunub ki, moped, velosiped, skuter kimi nəqliyyat vasitələrindən istifadə edənlər yolun sağ zolağı ilə yanaşı, təhlükəsizlik üçün şlemlərdən istifadə etməli, qeyd olunan məsələlərə məsuliyyətlə yanaşmalı və ətrafdakı insanların haqlı narazılıqlarına səbəb olan hallardan çəkinməlidirlər.

*Teymur Əlizadə*

# VƏTƏN UNUDULMUR, VƏTƏN UNUTMUR...

## Tarix təkrar olmasın deyə, daha güclü olmalıyıq








1988-ci il hadisələrinin ssenarisi hələ illər öncə hazır idi. Elə SSRİ-nin dağılması və ondan sonra baş verənlərə hazırlıq proseslərinin necə və hansı şəraitdə həyata keçirilməsi də planlaşdırılmışdı. Sovetlər Birliyinin içindən yıxılması dünyanı idarə etmək istəyən güclərin daha da güclənməsinə yol açırdı. Çünki özündə 15 müttəfiq respublikanı birləşdirən, nüvə arsenalına malik dövlətin parçalanması yeni siyasi prosesləri sürətləndirəcəkdi. Bu, belə də oldu. "Bütün imperiyalar məhvə məhkumdur" fikri öz təsdiqini tapdı. Lakin məsələ bununla bitmədi. Parçalanmış dövlətin yenidən imperiya olaraq deyil, bir fövqəl güc kimi ondan ayrılan parçalara hökm etməsi üçün siyasi, iqtisadi təsir vasitələri vardı.

Siyasi və fiziki xəritələr üzərində aparılan "cərrahi" əməliyyatları böyük bir siyasi ustalıqla həyata keçirən "SSRİ-dən qalma" ideoloqlar yeni münaqişə ocaqlarının yaranması üçün "B" planını işə saldılar. Regionda gücə çevriləcək türk və müsəlman dövlətlərin başı qonşularla müharibəyə qatışacaq və beləcə qorxulu röyaya çevriləcək TURANa gedən yol bağlanacaqdı. İlk hədəf əlverişli coğrafi şəraiti, təbii sərvətləri, neftlə zəngin bir ölkə olması, ən əsası multikultural dəyərlərə sadiqliyi ilə qoynunda yaşayan millətləri birliyə, quruculuğa səsləyən Azərbaycan oldu.

Tarixi Azərbaycan torpaqlarından, yeni Ermənistandan soydaşlarımızın deportasiya olunması hadisələrin daha kəskin xarakter almasına rəvac verdi. Siyasi çaxnaşmalardan ustalıqla istifadə edən haylar havadarlarının köməkliyi ilə Azərbaycana qarşı torpaq iddiaları ilə çıxış etdilər. Sən demə "Dənizdən-dənizə böyük Ermənistan"ı əhatə edən torpaqların əksəriyyətini Azərbaycan işğal edibmiş. Güclü diaspor, beynəlxalq aləmə yalan informasiyanın ustalıqla tirajlanması, Ermənistan dünyanın hər yerindən humanitar yardım adı altında gətirilən silahlar və rusların "Qorxma, mən səninləyəm!" dəstəyi regionda qüvvələr balansını dəyişdi...

1991-ci ildən başlayaraq topraqlarımızın işğalı həyata keçirilməyə başladı. Şuşanın işğalı siyasi və hərbi uğursuzluğumuzun əsasını qoydu. Laçının, Kəlbəcərin, Xocalının, Qubadlının, Füzulinin, Zəngilanın, Ağdamın süqutu isə həmin illərdə xalqı məhvə sürükləyən siyasi hərc-mərcliyin, xaosun, başıpozuqluğun nəticəsi idi...

Bu acı xronologiyaya Vətən müharibəsində qazandığımız tarixi Qələbə son qoydu. Ancaq tarixdən hər zaman ibrət götürməliyik. 30 illik həsrətə 44 gündə son qoyduq-Biz bunu xalq olaraq bacardıq. Haqq uğrunda apardığımız müharibə dünyanın dilində əzbər oldu. Azərbaycan əsgərinin şücaətini möcüzə adlandırıb ən tanınmış media təmsilçiləri ondan yazdılar. Azərbaycan adı bu dəfə neft ölkəsi kimi deyil, qalib bir ölkə kimi gündəmi zəbt etdi.

Və qazandığımız hər qələbədə, hər bir uğurda Azərbaycan Polisinin də əməyi, zəhməti var. O çətin günlərdə səngərlərdə sinəsini sipər edən həmkarlarımız Vətən müharibəsi başlayanda da ordu ilə birlikdə çiyin-çiyinə verib Vətənin müdafiəsinə qalxdı. Arxa cəbhə arın-arxayın, təhlükələrdən uzaq olsun deyə 44 gün yuxu nədir bilmədi polisimiz.

Bu gün işğaldan azad olunmuş torpaqlarımızda asayişi, sabitliyi qorumaqla Vətən qarşısında borcumuzu yerinə yetiririk. Və illər öncə torpaqlarımızın müdafiəsi uğrunda şəhidlik zirvəsinə ucalan həmkarlarımızı, Laçın RPŞ-nin şəhid əməkdaşlarını-Azərbaycanın Milli Qəhrəmanları Oktay Güləliyev, İsrafil İsaverdiyevi, Qorxmaz Eyvazovu hörmət və ehtiramla anır, ruhunuz şad olsun deyirik.

Yeri gəlmişkən, azadlığına qovuşan Laçınımızda həmkarlarımızın xidmətini fotolentin yaddaşına köçürən media nümayəndələri necə böyük bir işə imza atdıqlarının bəlkə də fərqində deyillər. Çünki həmin fotoları dost da görür, düşmən də. Elə illər öncə haylara dəstək verib torpaqlarımızın işğalında əli olanlar da.

*T.Hafiz*

---

# DÖYÜŞ MEYDANINDAKI QƏLƏBƏMİZDƏN RUHLANANLAR

## Vətən müharibəsindən sonra idmandakı uğurlarımız da artıb



Mübarizəyə başlamaq məqsədə çatmaq üçün atılan ilk addımdır. Hər mübarizə sonucda uğur gətirməsə də, bu o deməkdir ki, sən nəyin arxasınca getdiyinin fərqindəsən. Fərdi mübarizənin toplumu arxasınca aparacaq gücə çevrilməsi isə bütün müstəvilərdə qazanılacaq qələbələrin bünövrəsini qoymuş olur.

Vətən müharibəsindən sonra Qələbə mövzusu ürəklə dilə gətirdiyimiz, qürurla ifadə etdiyimiz mövzulardandır. Sanki bütün sahələrdə əldə edəcəyimiz uğurların sehirli açarı imiş 44 günlük döyüşlər.

Və ötən müddət ərzində müşahidələrimizdən gəlinən qənaət budur ki, Azərbaycan xalqı, onun hərəkətverici qüvvəsi olan mübariz gənclik döyüş meydanındakı qalibiyyət ruhu ilə qələbədən-qələbəyə doğru addımlayaraq qarşısına çıxan bütün maneələri inamla aradan qaldırır.

Yeri gəlmişkən, Konyada keçirilən V İslam Həmrəyliyi Oyunlarında gənclərimizin Qələbə əzmini, gücünü, döyüş ruhunu bir daha dünyaya sərgiləmiş olduq. Medallar əyarına görə fərqlənsə də, hədəf dünyanı qorumaq, yer kürəsinə sülh və əmin-amanlıq gətirmək üçün bəşəriyyətin birgəlik nümayiş etdirməsinə çağırış etmək idi.




**Oyunların gümüş mükafatçısı, Əlahiddə Çevik Polis Alayının I Taborunun I bölüyünün taqım komandiri, polis leytenantı Dadaş Dadaşbəyli** də, əslində, idmanın ilk missiyasının insanları birləşdirmək olduğunu diqqtimizə çatdırdı və yarışla bağlı təəssüratlarını bölüşdü: "İslam Həmrəyliyi Oyunlarına hazırlıq prosesi birinci Respublika çempionatından başladı. Çünki bu çempionatda ən güclülər seçilib İslamiadaya vəsiqə qazanacaqdı. DİN və Alay rəhbərliyinin razılığı ilə çempionata qatıldım. Yerdən və təkanla qaldırmada Azərbaycan rekordları siyahısında ilk oldum. Milli Olimpiya Komitəsinin 30 illik yubileyinə həsr olunmuş atletika üzrə Azərbaycan Kubokunu qazandıqdan sonra İslam Həmrəyliyi Oyunlarına vəsiqə qazandım".

Qeyd edək ki, həmkarımız birdən qaldırmada 174 kiloqram, təkanla qaldırmada isə 210 kiloqramın öhdəsindən gəlməklə İslam Həmrəyliyi Oyunlarının gümüş medalının sahibi olub. Hədəfi noyabr ayında Kolumbiyada keçiriləcək dünya çempionatına qatılmaq və qalib olmaqdır.

Onu daha yaxından tanımaq üçün uğur hekayəsinə nəzər yetirək. O, 2003-cü ildən ağır atletika ilə məşğul olur. 2012-ci ildən milli yığma komandanın üzvüdür. Yeniyetmələr arasında 2013-cü ildə, 2014-cü ildə isə gənclər arasında keçirilən Avropa çempionatlarında gümüş medallar qazanmaqla ən güclülərdən olduğunu sübut edib. 2015-ci ildə gənclər arasında keçirilən Avropa çempionatının qızıl medalını qazanan D.Dadaşbəyli həmin ildə həm də Avropanın ən güclü idmançısı seçilib. Ötən il böyüklər arasında keçirilən Avropa çempionatında 1 qızıl və 1 bürünc medal qazanıb.

*Ruhiyyə Əliyeva,*
*polis kapitanı*

---

# Gənclər güclərini sınayır

## Məqsəd onları zərərli vərdişlərdən çəkindirmək, sağlam həyat tərzinin və idmanın təbliğidir

Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətinin, Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə gənclər arasında "Sağlam bədəndə sağlam ruh" devizi altında idmanın kross və gimnastika növləri üzrə keçirilən yarışların rayon mərhələsinə start verilib. Tədbirlərdə DİN-in əməkdaşları, Rayon Gənclər və İdman idarələrinin rəhbərləri, idman ictimaiyyətinin nümayəndələri iştirak edirlər. Sentyabrın 1-dən start götürən çempionatın ilin sonunadək 40 rayonda keçirilməsi nəzərdə tutulub.






DİN İdman Cəmiyyətinin sədr müavini, polis polkovniki Elçin Rüstəmovun sözlərinə görə, turnirin əsas məqsədi gənclərin asudə vaxtlarının səmərəli təşkili, onların zərərli vərdişlərdən çəkindirilməsi, habelə sağlam həyat tərzinin və idmanın təbliği, Daxili İşlər Nazirliyi sistemində təhsilə və xidmətə təşviq edilməsi, o cümlədən gənclərin daxili işlər orqanlarında, Daxili Qoşunlarda xidmətə həvəsləndirilməsidir.

Bölgələrdə yaşayan gənclərin yarışlara böyük həvəs göstərdiyini, yaddaqalan mübarizə sərgilələmərini deyən İdman Cəmiyyətinin əməkdaşı, polis polkovnik-leytenantı Etibar Hacıyev 20-25 yaş arasındakı iştirakçıların proqramda müəyyən olunmuş marşurut üzrə 3000 metr kross qaçışını və gimnastika (turnikdə dartınma) hərəkətləri üzrə normativləri yerinə yetirdiklərini bildirdi.

İdman Cəmiyyətindən aldığımız məlumata görə, artıq Şamaxı, İsmayıllı, Oğuz rayonlarında və Şəki şəhərində turnirlərə yekun vurulub, hər bir hərəkət üzrə I, II və III yerləri tutan iştirakçılar diplom, medal, həmçinin qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

*T. Əlizadə,*
*M.Məsimov*

# Sıravi və kiçik rəis heyəti vəzifələrinə (operator) xidmətə qəbulla bağlı müsabiqə

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi operator vəzifələri üzrə müvafiq qurumlarında vakant olan sıravi və kiçik rəis heyəti vəzifələrinə xidmətə qəbulla əlaqədar müsabiqə elan edir.

***Müsabiqədə yaşı 25-dən 30-dək, boyu 160 santimetrdən yuxarı olan, Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrini bitirmiş, əvvəllər özü və yaxın qohumları qəsdən törədilmiş cinayətlərə görə məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən, Bakı şəhərində daimi qeydiyyatda olan və yaşayan Azərbaycan Respublikasının qadın cinsli vətəndaşları iştirak edə bilərlər.***

Həmin vəzifələrdə əmək funksiyalarının spesifikliyi baxımından müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, fiziki hazırlıqları və bilik səviyyəsi müəyyən olunmuş normativlər üzrə yoxlanılaraq, kompüter və rabitə avadanlıqları ilə işləmək, analitik düşünmə və araşdırma, düzgün qərar vermək və problem həll etmək qabiliyyətlərinə malik, komandada işləmək bacarıqları və qrammatik bilikləri yüksək səviyyədə olan, məsuliyyətli, diqqətli və inkişafa meyilli, ən azı xarici dillərdən birini sərbəst bilən və ailəli şəxslərə üstünlük veriləcək.

Müsabiqə qaliblərinə Azərbaycan Respublikası DİN-in kadrları tərkibinə daxil edilərək müvafiq xüsusi rütbə verilməklə 500-800 manat aylıq təminat xərcliyi ödəniləcək, habelə qanunvericiliklə müəyyən olunmuş qaydada onların daxili işlər orqanları əməkdaşlarına şamil olunan bütün imtiyazlardan istifadə hüququ olacaq.

İştirak etmək istəyən şəxslər 2022-ci ilin avqust ayının 25-dən sentyabr ayının 25-dək Daxili İşlər Nazirliyinin internet saytında **/www.mia.gov.az/** yerləşdirilmiş elektron ərizə formasını və anket məlumatlarını şəxsən dolduraraq elektron poçt vasitəsilə DİN-in Baş Kadrlar İdarəsinin **bki@mia.gov.az** elektron ünvanına göndərməlidirlər.

**Əlavə məlumat üçün əlaqə telefonları:**

**(012) 590-80-63 / 80-63 daxili**
**(012) 590-80-66 /80-66 daxili**

# Daxili işlər orqanları əməkdaşlarının nəzərinə!



Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin 1, 2, 3 və 4 saylı uşaq bağçalarına daxili işlər orqanlarında xidmət edən əməkdaşların uşaqlarının qəbulu həyata keçirilir.

Ətraflı məlumat üçün DİN-in Maddi-Texniki Təminat Baş İdarəsinə müraciət edə bilərsiniz.

**Əlaqə nömrələri: (012) 562-38-40 və 408-81-25**

# Yollar bağışlamır...

Yol nəqliyyat hadisəsi insan faktorundan qaynaqlandığına görə qəzalarda həyatını itirənlərin faciəsinə qəzavü-qədər deyib keçmək olmur.

Polisin təhlilləri göstərir ki, ağır qəzalar, adətən, avtomobilin sərxoş vəziyyətdə idarə edilməsi, ötmə qaydalarını pozma, sürət həddinin aşılması ucbatından baş verir. Yəni bədbəxt hadisələrə hərəkət iştirakçılarının məsuliyyətsizliyi səbəb olur əksər hallarda. Bundan başqaları da zərər çəkir və belə məqamlarda "qismət", "tale", "həyatı buraya qədərmiş" kimi təsəlliedici kəlmələrə yer qalmır.

Bir neçə gün əvvəl Lerikdə baş vermiş ağır yol qəzasında 8 qadının həyatını itirməsi, bir o qədərinin də ağır xəsarətlər alması ilə neçə ailənin ocağı əbədi olaraq söndü. İlkin ehtimallara görə, idarəetməni itirən sürücü mikroavtobusu maneəyə çırparaq, aşırıb... Yəni bu qədər ağırı-acı bir neçə kəlməyə "sığışan" bu səbəbdən törəyib.

İndi gəl qəzavü-qədəri qına, görək, necə qınayırsan?!



Yollarda polis əməkdaşının ölümü, xəsarət alması ilə nəticələnən yol-nəqliyyat hadisələrinin baş verməsi heç də birmənalı qarşılanmayan ayrı bir məsələdir. Çünki cəmiyyətdə polis əməkdaşının nümunəvi həyatı ilə bağlı bəlli bir təsəvvür var. Məsələn, polis küçəni elə keçməz - belə keçər, maşını o cür idarə etməz - bu cür edər, hamı kimi danışmaz - qanun təmsilçisi kimi danışar... Məhz hər bir qanun təmsilçisi bunları nəzərə alıb etdiyi hərəkətə, dediyi fikirə çəki-düzən verməlidir. Bu, o deməkdir ki, qanun keşikçisinin davranışlarını qanun və normativ aktlardan başqa, həm də "ictimai nəzərlər" tənzimləyir. Və cəmiyyət polis əməkdaşının hətta ölümünün belə cinayətkarlıqla mübarizə apararkən baş verməsinə öyrəşib, bunu təbii "qanunauyğunluq" hesab edir. Avtoqəza isə qanun-qayda pozuntusu ilə əsassasiya olduğuna görə haqlı və ya haqsız suallar yaradır.

Sözümüzün canı odur ki, polis əməkdaşlarının nəqliyyat vasitəsini idarə edərkən qanunun tələblərinə son dərəcə dəqiq əməl etmələri onları yalnız qəzalardan sığortalamır, eyni zamanda, baş verən digər yol nəqliyyat hadisələrinə bəraət qazandırılmasına, "polis əməkdaşı da qəzalar törədirsə, deməli, bu, normal haldır" bəhanəsinə imkan vermir. İnternet resurslarında polis əməkdaşlarının iştirakı ilə baş vermiş avtoqəza hadisələri ilə bağlı axtarış aparanda, təəssüf ki, belə bəhanələr doğuran hadisələr çıxır qarşımıza.

Doğrudur, bu hadisələrin sayı çox deyil və ümumi yol nəqliyyatı hadisələrinin statistikasının heç bir faizini də təşkil etmir. Ancaq biz nümunə olmaqdan danışırıqsa, qanunun və DİN rəhbərliyinin tələblərinə hərfiyyən əməl etməliyik ki, nəinki ağır fəsadlara gətirib çıxaran, ümumiyyətlə, ictimai müzakirə doğuracaq hallar baş verməsin.

*"Polis"*

# Azərbaycan filmi "Accolade heykəlciyi"nə layiq görülüb

Polis veteranı Cəlaləddin Qasımovun senari müəllifi, quruluşçu rejissoru və baş prodüseri olduğu film beynəlxalq yarışmada mükafat qazanıb. Belə ki, "SSP Production"ın istehsalı olan "Xatirə və Xəta" bədii filmi ABŞ-da keçirilən nüfuzlu 19-cu "Accolade Qlobal Film Yarışması"nda "Ən yaxşı bədii film" kateqoriyası üzrə "Accolade heykəlciyi" adlandırılan qızıl prizə layiq görülüb.

Ekran əsəri koronavirusa qarşı mübarizədə həkimlərlə birlikdə öz həyatını təhlükəyə atan polis əməkdaşlarının və müxbirlərin cəsarətindən bəhs edir.

Festivalda Ermənilərin Aprel döyüşləri haqda çəkdikləri uydurma film də mükafata layiq görülüb. "Bahar" adlanan ekran işində haylar həqiqətləri saxtalaşdıraraq soyqırıma məruz qaldıqlarını uydurublar.

Təəssüfedici, həm də maraqlı məqam odur ki, bu gün reallıqları, həqiqətləri görən, ölkəmizlə beynəlxalq müstəvidə münasibətlər quran, hətta bizi özünə tərəfdaş hesab edən dövlətlərin bir çoxu erməni yalanlarının ayaq tutub yeriməyinə dəstək verirlər. Qəbul edilməsi çətin olsa da, bu, belədir. Əgər belə olmasaydı, ordumuzun qışa çevirdiyi "Erməni Bahar"ı mükafatçılar siyahısına düşməzdi. Deməli, bizə qarşı ikili yanaşma bu gün də mövcuddur.

Ümid edirik ki, çox qısa zamanda ermənilərin özləri haqqında uydurduğu sözügedən filmdə "sülhsevər", "yazıq", "soyqırıma məruz qalmış" xalq mifi, erməni "Bahar"ları elə onu qiymətləndirən "kino" biliciləri tərəfindən növbəti festivala qədər ifşa olunacaq və layiq görüldüyü qondarma mükafatlar da geri alınacaq.

*Teymur Əlizadə, polis mayoru*




**Səbail RPİ-nin 9-cu Polis Bölməsinə** Bakı şəhər sakini P.Məmmədovun içərisində 350 manatı olan cüzdanının soyğunçuluq yolu ilə talanması barədə müraciət daxil olub.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində soyğunçuluğu törətməkdə şübhəli bilinən Neftçala rayon sakini F.Məhərrəmov müəyyən olunaraq saxlanılıb.

◆◆◆

**Xaçmaz RPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində Hülövlü kənd sakini S.Məmmədovun idarə etdiyi "VAZ-2174" markalı avtomobilə baxış zamanı oradan xaricdə istehsal edilmiş tapança aşkar olunaraq götürülüb.

◆◆◆

**Sumqayıt ŞPİ 5-ci PB** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində Stansiya Sumqayıt qəsəbə sakini, əvvəllər məhkum olunmuş R.Abdullayevin evinə baxış zamanı oradan nömrəsi silinmiş, lüləsi və qundağı kəsilmiş ov tüfəngi aşkar olunaraq götürülüb.




# Orqanizmdə su çatışmazlığının 9 əlaməti

Beyin, qan, ürək, böyrəklər, qaraciyər, neyronlar, sinirlər, gözlərin normal funksiyaları üçün əsas komponentlərdən biri də sudur.

Əgər orqanizm susuzdursa, bütünlükdə bədən, beyin, orqanlara neqativ təsir göstərir.

İnsan yalnız susayanda suya ehtiyacı olduğunu düşünür. Lakin bu belə deyil.

Bədəndə su çatışmazlığından yaranan əlamət və narahatlıqlar.

**1.** Ağızda, dildə quruluq - ən açıq-aşkar əlamətlərdən biridir.

**2.** Quru dəri, quru saçlar.

**3.** Az tərləyirsiz - əgər az tərləyirsinizsə, buna sevinməyin. Deməli, su az içirsiniz və tərlə bədəndəki toksinlər çıxmır.

**4.** Gözlərdə sanki qum batma, yanma hissi – qırmızı, quru, yorğun, qızaran, yanan gözlər də su çatışmazlığını göstərir. Susuzluq gözləri məhv edir.

**5.** Oynaqlarda ağrı – az su içən insan gəzəndə dizləri ağrıyır, əsasən iş görəndə, pilləkən çıxanda ağrı, sanki qırılma hissi, oynaq səsi gəlirsə, deməli qığırdaqlar susuzdur.

**6.** Əzələ kütləsinin azalması, arıqlama – əzələ toxumasının 60 faizi sudan ibarətdir. Əgər siz normal miqdarda onlara "su vermirsizsə", əzələ kütləsi yığa bilməyəcəksiz. Ona görə idmandan sonra su içmək çox vacibdir.

**7.** Tez-tez xəstələnmək – qrip, virus xəstəliklərində orqanizm toksinləri çıxarmaq üçün suya ehtiyac duyur. Lazım olan vaxtda su tapmayan orqanizm viruslarla mübarizə apara bilmir. Su az içən insanlar gec sağalır.

**8.** Yorğunluq, halsızlıq – orqanizmdəki susuzlaşma qanda oksigen azlığı yaradır, beləcə insan oksigen aclığı yaşayaraq, dincələ bilmir, işləyə bilmir, yorğun, enerjisiz olur.

**9.** Həzm problemləri – mədə şirəsi, bağırsaq su ilə çalışır. İnsanın ağız boşluğu daim nəm, sulu olmalıdır. Orqanizmdə suyun az olması nəticəsində həzm prosesləri pozulur, qəbizlik yaranır.

*Natiq Abdullayev*

# STATİSTİKA

## Kriminal icmal

✸ Avqustun 31-dən sentyabrın 7-dək olan müddət ərzində ölkə ərazisində qeydə alınan cinayətlərdən 407-nin, eləcə də əvvəlki dövrlərdən bağlı qalan cinayətlərdən 114-nün açılması daxili işlər orqanlarının əməkdaşları tərəfindən təmin olunub.

✸ Axtarışda olduğuna görə ümumilikdə 318, o cümlədən borclu şəxs qismində axtarışda olan 225 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

✸ Respublikanın avtomobil yollarında ölümlə nəticələnən 15 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 22 nəfər ölüb, 11 nəfər isə xəsarət alıb.

✸ Narkotiklərlə əlaqəli 235, qanunsuz saxlanılan silah-sursatın götürülməsi və aşkarlanması ilə bağlı 12 fakt müəyyən edilib.

*Natiq Cavadov*

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10009
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:00
Qiyməti 40 qəpik